# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 336** **Bakı şəhəri, 2 noyabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" 2014-cü il 26 fevral tarixli 63 nömrəli, "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2014-cü il 23 aprel tarixli 109 nömrəli, "Psixoloji yardımın növünə, formasına, müddətinə və keyfiyyətinə dair minimum Tələblər"in təsdiq edilməsi haqqında" 2020-ci il 16 oktyabr tarixli 397 nömrəli, "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin təsdiq edilməsi haqqında" 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli və "Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 16 oktyabr tarixli 400 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Psixoloji yardım haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 9 aprel tarixli 606 nömrəli, "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 10 aprel tarixli 861 nömrəli, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyun tarixli 140 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 21 yanvar tarixli 482 nömrəli, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1358 nömrəli Fərmanının 8-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1001, № 10, maddə 1295; 2016, № 2 (II kitab), maddə 355, № 9, maddə 1585; 2018, № 9, maddə 1943, № 10, maddə 2171, № 11, maddə 2462; 2019, № 3, maddə 518, № 8, maddə 1460; 2020, № 4, maddə 477, № 12 (V kitab), maddə 1613) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "İstintaq təcridxanalarının daxili intizam Qaydaları" üzrə:

1.1.1. 27.6-cı bəndin üçüncü cümləsində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

1.1.2. 27.8.10-cu yarımbənddə "səhiyyə" sözü "dövlət tibb" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nın 10.16-cı bəndinin birinci cümləsində və 13.8-ci bəndində "səhiyyə orqanlarının" sözləri "dövlət" sözü ilə əvəz edilsin.

**2.** "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 aprel tarixli 109 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 453) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi Qaydası" üzrə:

2.1.1. 1.4-cü bənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin" sözləri ilə əvəz edilsin;

2.1.2. 1.7-ci bənddə "tabeliyi üzrə müvafiq səhiyyə idarə və ya müəssisəsinə" sözləri "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə" sözləri ilə əvəz edilsin;

2.1.3. 3.2-ci bəndin üçüncü cümləsində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

2.1.4. 3.4-cü bəndin birinci cümləsində "əhalinin sosial müdafiəsi" sözləri "sosial xidmət" sözləri ilə, "səhiyyə sistemi" sözləri "tibb" sözü ilə, ikinci cümləsində (hər iki halda) "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

2.1.5. 3.5-ci bənddə "səhiyyə və əhalinin sosial müdafiəsi" sözləri "tibb və sosial xidmət" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Dispanserizasiya tədbirlərinin maliyyələşdirilməsi Qaydası"nın 3-cü və 4-cü hissələrində "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözləri "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 397 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1285) ilə təsdiq edilmiş "Psixoloji yardımın növünə, formasına, müddətinə və keyfiyyətinə dair minimum Tələblər"in 6.2-ci bəndində birinci halda "Səhiyyə" sözü "Tibb" sözü ilə və "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1286) ilə təsdiq edilmiş "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin 3.8-ci bəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 400 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1288) ilə təsdiq edilmiş "Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi Qaydası"nın 1.1-ci bəndində, 4.2-ci bəndinin birinci cümləsində və 4.7-ci bəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2021.- 4 noyabr.- S.9.